# Mənim tanıdığım Elşad Qoca

**Həyat, tale insanları çox sınaqlara çəkir. İradəsi möhkəm, hər bir əziyyətə, çətinliyə dözüb, məhrumiyyətlərə sinə gərən, tutduğu, getdiyi yolun doğruluğuna inanan və qələbəyə çatmaq üçün var gücü ilə özündə möhkəm iradə tapan şəxslər hamıya örnək olurlar.**

Tanıdığım yazıçı, publisist, tədqiqatçı Elşad Qoca bu dediklərimə layiqdir. Mənə elə gəlir ki, Elşad müəllim memar, həkim, mühəndis olsaydı, ən peşəkar, öz sahəsində qətiyyətlə sözünü deyən tanınan bir şəxsiyyət olardı. O, ruhən, qəlbən jurnalistikanı, bədii sözü seçdi. Bu sahədə əziyyətlərə qatlaşdı, özü öyrəndi və qələmi ilə müqəddəs sözə sadiq qaldı.

Özünün 60-cı baharını qeyd edəcək dostum Elşad Qoca haqqında düşüncələrimi bölüşmək, bir jurnalist, yazıçı, tədqiqatçı kimi onun keçdiyi yola nəzər salmaq yerinə düşər.

Bəri başdan deyim ki, qırx il bundan əvvəl tanıdığım Elşad öz səmimiyyəti, prinsipiallığı ilə baş verən hadisələrə son dərəcə həssas və ədalətli mövqeyini bu günə qədər qoruyub saxlayıb. Boyu boyda kədərini qəlbində saxlayıb, bir tikə sevincini isə dostlarla bölüşməyi bacarıb. Bu gün də zəhmətə qatlaşıb sadiq qaldığı müqəddəs sözə və qələminə güvənməkdədir.

İlk tanışlığımız "Yazıçı" nəşriyyatında olmuşdu. Elşad və üç tələbə yoldaşı təcrübəyə gəlmişdilər. Nəşriyyatın publisistika şöbəsində təcrübə keçirdilər. 70-80-ci illərin Bakısında o zaman ədəbi mühitin qaynar vaxtı idi. Özünün davranışı, yüksək mədə-niyyəti və tapşırılan işə diqqətlə yanaşması onu səciyyələndirən xüsusiyyətlərdən biri idi.

Tanınmış tədqiqatçı, pedaqoq, nəşriyyat işini gözəl bilən publisistika şöbəsinin müdiri Zəkiyyə xanım Qiyasbəyli Elşadı çox istedadlı bir gənc və gələcəyi olan mütəxəssis kimi xarakterizə edirdi. Sonradan uzun illər keçdi, həmin tələbə gənc tanınmış jurnalist və tədqiqatçı kimi Qiyasbəylilər haqqında çox qiymətli arxiv materiallarının üzə çıxmasına nail olacaqdı.

O, 1959-cu il may ayının 2-də Qərbi Azərbaycanın (indiki Ermənistanın Noyemberyan) İncəsu rayonunun Körpülü kəndində Qoca müəllimin ailəsində doğulub. Anası Məleykə xanım da bir pedaqoq, ziyalı kimi onlara Körpülü uşaqların həyat yollarına işıq salmışdı. Valideynləri Elşadı da başqa övladları kimi savadlı, cəmiyyətə, soy köklərinə layiq görmək istəyirdilər. Onun uşaqlığı Körpülüdə keçib. Oxumaq, yüksək təhsil almaq üçün Bakıya üz tutub. İncəsu, Körpülü heç za-man yaddaşından çıxmayıb. Xəyala dalanda, özü ilə təkbətək qalanda həmişə doğma kənd, onun füsunkar gözəlliyi, dağları, təpələri, meşələri, top qovduqları meydançaları yadına düşür.

İstənilən ədəbi-bədii tədbirlərdə, görkəmli şair və yazıçılarla keçirilən görüşlərdə onu görmək mümkün idi. Tələbə dostları ilə səmimi və istiqanlı dost idi. Xoşbəxtlikdən o ilin jurnalistika fakültəsinin məzunları sonralar qəzet-jurnal, telemakanda aparıcı simalara çevrildilər.





1982-ci ildə Azərbaycan Dövlət Universitetinin məzunu olan Elşad İsayev leytenant rütbəsində Sovetlər Birliyinin Sibir və Ural Hərbi dairəsində tağım komandiri və bölük komandirinin müavini vəzifəsində hərbi xidmət keçmişdi. O zaman hərbi dairələrin hər birində qəzet nəşr olunurdu. Gənc zabit hərbi müxbir kimi "Boyevoye znamye", "Sovetski voin" qəzetləri ilə yaxından əməkdaşlıq etmişdi.

Hərbi xidməti başa vurduqdan sonra Azərbaycana qayıdan Elşad İsayev 1984-85-ci illərdə müxbir kimi "Kənd həyatı", 1988-90-cı illərdə "Pioner", indiki "Günəş" jurnallarında müxbir və ədəbi işçi vəzifələrində çalışıb. 1990-cı il qanlı 20 Yanvar faciəsindən sonra işıq üzü görən "Səhər" qəzetində çalışıb.

Artıq 1984-cü ildən başlayaraq Elşad Qoca imzası ilk bədii əsərləri respublikanın tanınmış nəşrlərində çap olunur. "Göyərçin", "Mərhəmət", "Kirpi", "Azərbaycan qadını" jurnalları, "Sovet kəndi", "Molodyoj Azerbaydjana", "Vışka" qəzetləri müntəzəm olaraq Elşad Qocanın məqalələrini çap edir.

Ermənistandan soydaşlarımızın öz doğma torpaqlarından yerindən-yurdundan didərgin düşməsi, tarixi yurd yerlərimizin yağmalanması, azərbaycanlılara qarşı etnik təmizləmə, kütləvi qırğınlar hamımız kimi Elşad Qocanın da dincliyini əlindən almışdı. Qərbi Azərbaycanda qalan yurd yerlərimizdə bayquşlar ulayırdı. Məcburi köçkünlük, qaçqınlıq həyatı yaşayan insanların ağır, dözülməz durumu ürək parçalayırdı. Erməni zülmündən, vandalizmindən qaçıb qurtara bilən insanlara kömək üçün heç nəyi əsirgəmirdi. Elşad Qocanın yaxınları da bu köçə məruz qaldı. Təbii ki, bu durum çox ağır idi.

1990-cı ilin 20 Yanvar faciəsi xalqımızın qan yaddaşından heç vaxt silinməyəcək. Bu qətliamı törədənlərin ifşası, həqiqətlərin üzə çıxması və onun gələcək nəsillərə çatdırılması üçün bir jurnalist kimi Elşad Qoca da bir-birindən maraqlı yazılarla qəzet səhifələrində çıxış edirdi.

1991-ci il dekabr ayının 16-da Azərbaycan Respublikasının Dövlət Sərhədinin Mühafizə Komitəsi yaradıldıqdan sonra, qurumun bir orqanı kimi "Sərhəd" qəzeti işıq üzü gördü. Qəzetin formalaşması məsələsi qarşıya qoyulmuşdu. Bu işin ağırlığı peşəkar hərbiçi, istedadlı publisist, ürəyi Azərbaycan sevgisi ilə döyünən şair polkovnik Ramiz Duyğunun üzərinə düşmüşdü. O, yüksək təşkilatçılıq bacarığı ilə çalışır, "Sərhəd" qəzetini formalaşdırır, həm də Mətbuat şöbəsinin işinin təşkili üçün əlindən gələni əsirgəmirdi.

Ramiz müəllim yaxından tanıdığı Elşad Qocanı "Sərhəd" də birgə işləməyə dəvət etmişdi. Qəzetin formalaşması üçün bir jurnalist kimi Elşad Qoca baş redaktorla birgə çox zəhmət çəkir. İndi aforizmə çevrilən "Dosta acıq, düşmənə bağlı" manşetilə nəşr olunan "Sərhəd" qəzeti qoşunlara layiqincə xidmət göstərməyə başladı.

Çap olunan oçerk, reportaj, təhlili yazılar şəxsi heyətin mənəvi-psixoloji durumunun daha da yüksəlməsinə xidmət etdi. Bununla yanaşı qaçaqmalçılığa, sərhəd pozuculuğuna qarşı aparılan ciddi mübarizə və onun nəticələri barədə kəsərli materiallar maraqla qarşılanırdı. Qəzetin "Burdan vətən görünür", "Əbədi məşəlin uğrunda", "Təki vətən yaşasın" rubrikalarında Elşad Qocanın çap olunan məqalələri bu gün də aktuallığını itirməyib.

1993-cü ilin fevralında cəbhədə vəziyyət ağır idi. Nizam-intizamın aşağı səviyyədə olması, ayrı-ayrı dəstələrin düşmənçilik mövqeyi nəticəsində durum xoşagəlməz idi. Sərhədçilərdən ibarət bir bölük Ağdərənin müdafiəsinə qalxdı. Cəbhəyə yola düşən döyüşçülərimizin sırasında Elşad Qoca və operator Azər İbadov da yer almışdı.

Bir bölüyün keçdiyi döyüş yolunu salnamə desək doğru olar. Bəzən bir bölüklə də məkrli düşməni əzmək, onu məhv etmək mümkün olub. Necə ki, sərhədçilərdən ibarət həmin qurum öz sözünü dedi. Onların döyüş əzmindən bəhs edən bədii materiallar əhəmiyyətini hər zaman qoruyub saxlayacaq.

Xidməti işlə yanaşı Elşad Qoca yaradıcılığını təkmilləşdirir, əsərlərinin nəşri üzərində ciddi çalışır. 1998-ci ildə "Şuşa" nəşriyyatı onun "Oğlum mənim, atam mənim" adlı nağıllar, hekayələr və tərcümələrdən ibarət kitablarını nəşr etdi. Anasının, Elşadın özünə müəllim hesab etdiyi iyirminci əsrin ən görkəmli nümayəndələrindən biri, tanınmış yazıçı Nəriman Süleymanovun, həyatdan vaxtsız və faciəli şəkildə köçən dostu yazıçı-kinodramaturq Qismətin və düşmən caynağında olan Körpülü kəndinin adına bağışladığı bu əsər nəinki uşaq, gənclər, bütövlükdə geniş oxucu kütləsi üçün çox maraqlıdır. Onun əksər hekayələri doğma Körpülü kəndi, onun təbiəti və tarixi yerləridir.

Ötən əsrin əvvəllərində ilk dəfə müstəqilliyini elan edən Azərbaycan xalqı azadlığın qoruyub saxlanması və möhkəmlənməsi üçün çox böyük işlərin həyata keçməsinə nail olmuşdur. Cümhuriyyətin qurucuları qısa müddətdə həyatın bütün sahələrini əhatə edən qanunlar qəbul etdilər. Xüsusən ordu quruculuğu, yeni yaranan dövlətin təhlükəsizlik məsələləri ön planda idi. Bolşevik Rusiyası 1920-ci ilin aprel ayının 28-də Azərbaycanı işğal etdi. İşğalın ilk gecəsi yüzlərlə insan sorğu-sualsız güllələndi. Bolşeviklər erməni daşnakları ilə birləşib xalqımıza divan tutdular. Cildini dəyişmiş imperiya daha yırtıcı, daha qəddarlıqla, daha da amansızlıqla xalqın övladlarına qarşı repressiya, qətliam törətdi. Zahiri görünüşünü dəyişən imperiya Fövqəladə Komissiya, Siyasi İdarə, XDİK, DTK adı ilə fəaliyyətə başlayır, terror və repressiya maşınını işə salıb kütləvi qırğından çəkinir. Dövlət xadimləri, ziyalılar, Azərbaycan ordusunun generalları, zabitləri sorğu-sualsız məhv edilir, işgəncələrə məruz qalır, əksəriyyəti də Qazaxıstana və Sibirə sürgün edilir. Bütün bunları tarixi mənbələrdən araşdırıb xalqa çatdırmaq lazım idi. 1995-ci ildən etibarən bu istiqamətdə təhlükəsizlik orqanlarının arxivlərində çox ciddi araşdırmalar aparılmağa başlanıldı. Qırmızı terrorun bu cür qansızlığını heç zaman yaddan çıxartmaq, unutmaq olmazdı. Bir yazıçı, jurnalist kimi Elşad Qoca həm respublika Dövlət, həm də indiki DTX arxivlərində xeyli elmi araşdırmalar aparmış və "Cəllad etirafı" kimi çox sanballı elmi tarixi və publisistik bir əsəri ortaya qoyub. 1999-cu ildə kitabın ön sözünün müəllifi və redaktoru Fuad İsgəndərov əsər haqqında yazırdı: "Milli şüurun və milli yaddaşın qənimi kəsilənlər xalqın işıqlı ağıl, dərin zəka sahiblərini Azərbaycan tarixinin əvəzsiz şəxsiyyətlərini güllə qarşısında qoydular, ölüm düşərgələrində çürütdülər. Səməd bəy Mehmandarov, Əliağa Şıxlinski, Aslan bəy Səfikürdski, Camo bəy Hacınski kimi hərbi dühа və dövlət xadimləri Hüseyn Cavid, Əhməd Cavad, Bəhlul Əfəndi Behçət, Salman Mümtaz kimi hər millətin tarixində yüz ildə bir yetişən yaradıcı şəxsiyyətlər, Ülvi Rəcəb, Abbas Mirzə Şəfizadə kimi dahi aktyorlar Firudin bəy Şamxorski kimi Azərbaycanın ən imkanlı mülkədarları xalq düşməni adlandırılaraq xalqın düşmənləri tərəfindən faciəli tale yaşamağa məhkum edildilər".

Yazıçı öz araşdırmaları ilə sitatda adları keçən şəxsiyyətlər haqqında həmçinin Qiyasbəylilər, Topçubaşovlar, Şaxtaxtinskilər, polkovnik Ağalarov, Makinskilər haqqında bir çox həqiqətləri üzə çıxardı. Ürək ağrısı ilə qələmə alınan məqalələrdə insanı dəhşətə salan məqamlar, imperiya və rejimin nə qədər qəddar, nə qədər qaniçən, türk-azərbaycanlıların qanına yeriklədiklərinin şahidi olan oxucu bu rejimə qarşı nifrətini gizlədə bilmir. Müəllifin fakt və hadisələri dərindən təhlil edib, ürək yanğısı ilə araşdırdığı hər bir insanın taleyini yaşayırmış kimi yanaşması "Cəllad etirafı" kitabının hər səhifəsindən görünür. Tanınmış araşdırmaçı, istedadlı jurnalist, nasir Vasif Quliyev deyir ki, Elşad Qocanın əksəriyyət kitablarının nasiri olmuşam. Tarixi araşdırmalarda ciddi yanaşma, həqiqətin üzə çıxmasında onlarca mənbənin tutuşdurularaq dərindən analizi, əsərlərində elmi-tarixi ardıcıllığın qorunub saxlanıl-ması, xüsusən dilimizin səlistliyinə əməl etməsi yazıçı Elşad Qocanın yaradıcılıq üslubudur desək, yanılmarıq. "Cəllad etirafı" kitabı ilə müəllif repressiya tarixinin qanlı səhifələrini araşdıran zaman bir daha məlum olur ki, xalqa qan udduran təkcə şəxsiyyət deyil, onun qurub möhkəmləndirdiyi rejimin özü cəlladdır. Onun etirafı isə özünün mahiyyətinin qəddarlığı bir birindən dəhşətli cinayətləri, qanlı terroru, xalqa divan tutmaqlarının üzə çıxması deməkdir. Amma cəllad rejimini idarə edənlər və rejimin özü buna gedərdimi?

"Cəllad etirafı"na son söz əvəzi yazan və tarixi araşdırmaları ilə tanınan tədqiqatçı jurnalist Lətif Şüküroğlu yazırdı: "Cəmiyyət total cinayətlər istehsalçısına çevriləndə həmin cinayətlərin arxasında hansı cəllad şəxsiyyətinin olduğunun da fərqinə varmır. Qan tökmək, faciələrə bais olmaq vasitə yox, məqsəd daşıyır".

"Cəllad etirafı"dan sonra Elşadın "Sibir dərsi" publisistik kitabı işıq üzü gördü. Burada da müəllifin qələmə aldığı məqalələr tariximizin qaranlıq səhifəsinə işıq salmaqdadır.

Azərbaycan təhlükəsizlik və xüsusi xidmət orqanlarının təşəkkül tapması, yaranmış tarixi, qəbul edilmiş qərar xidmət edən şəxsiyyətlər barəsində bir çox yazıçı jurnalistlər, tarixçi alimlər araşdırmalar aparıblar. Elşad Qoca da bu sahədə çox ciddi uğurlu tədqiqat işinə imza atıb. Onun "Azərbaycan təhlükəsizlik və xüsusi xidmət orqanları" (2000), "Tariximiz və taleyimiz" (2001), "Azərbaycan xüsusi xidmətləri" (2004) kitabları bir daha qeyd etmək istəyirəm ki, öz elmi dəyərinə görə mükəmməl əsərlərdir. Tarixi həqiqətlərin hər tərəfli araşdırılmasına xidmət edir. 2018-ci il yazıçı-publisist Elşad Qocanın yaradıcılığında çox əlamətdar bir il olub. Müəllifin "Azərbaycan kəşfiyyatı və əks-kəşfiyyatı" kitabı Azərbaycan, rus və ingilis dillərində nəşr olunub. Kitabda 1918-20-ci illərdə Şərqdə günəş kimi doğan Azərbaycan Xalq Cümhuriyyətinin xarici və daxili düşmənlərdən qoruyan bir orqanın və orada çalışan əməkdaşların çətin və ağır günlərdə vətənə, dövlətə şərəfli xidmətlərini önə çəkilib.

Əlbəttə, xarici dillərə çevrilmiş bu tarixi əsər Azərbaycan təhlükəsizlik orqanlarının şanlı tarixinin daha geniş auditoriyaya hesablanması deməkdir.

2018-ci ildə "Azərbaycan kəşfiyyatı və əks kəşfiyyat", "Yüz ilin işığında", "Körpülüyə gəlirəm" adlı kitabları ilə oxucuların görüşünə gələn yazıçı dostumuzun uğurunun arxasında böyük zəhmət və prinsipiallığın dayandığının şahidi olursan.

*(Davamı səh: 14-də)*

# Mənim tanıdığım Elşad Qoca

*(Əvvəli səh: 12-də)*

"Yüz ilin işığında" kitabına daxil olan məqalələrdə müəllif cümhuriyyət dövrünün gizli orqanlarının fəaliyyətini bir daha araşdırır, həmin təşkilatın rəhbərləri haqqında dolğun məlumatları açıqlayıb. Hər bir yaradıcı insan öz qəlbinin hökmü, hadisələrə daha sağlam düşüncə, ürək yanğısı ilə yanaşanda qələmin məhsulu daha oxunaqlı, daha da uzun ömürlü olur. İstər bədii-publisistik, istərsə də tədqiqat sahəsində Elşad Qocanın uğuru zəhmət və ciddi vətəndaş mövqeyindən irəli gəlir. Cümhuriyyət dövrünün tədqiqatçılarının hər birinin uğuruna, əməyinə sayğı duyur, yazdıqları əsərləri yüksək dəyərləndiririk.

Azərbaycanın gizli xidmətinin yaranma tarixi, fəaliyyəti, orada çalışmış fədakar insanların talelərini dərindən və hərtərəfli araşdıran Elşad Qocanınsa müstəsna xidmətlərini xüsusi vurğulamaq istəyirəm. Bolşevik rejiminin, qırmızı terrorun qaniçən cəlladı Lavrenti Beriyanın fəaliyyəti ilə tanış olan zaman insan təxəyyülündə orta əsr başkəsənin mənfur siması canlanır. Cümhuriyyətin ən məşhur görkəmli hərbi xadimi milli Azərbaycan korpusunun yaradılmasında yaxından iştirak edən, Bakının erməni daşnak-bolşevik hərbi birləşmələrinin təmizlənməsində igidlik göstərən Həbib bəy Səlimov haqqında yazılan "Cümhuriyyətin ən cəsur sərkərdəsi niyə güllələndi? məqaləsində oxucu bu sualın cavabını özü tapır. Bakıda, Lənkəranda, Muğanda baş qaldıran ünsürlərin təxribatlarının qarşısının alınmasında bu böyük şəxsiyyətin qiymətli rolu danılmazdır. Şuşada, Xan-kəndində azərbaycanlılara qarşı qırğınlar törədən Dro, dəli Qazarın başçılıq etdiyi qoşunları darmadağın edib Qarabağdan rədd olması və qəddarlığı ilə ad çıxaran dəli Qazarın məhv edilməsi, Dronun və əlaltılarının rüsvayçılıqla torpaqlarımızdan cəhənnəm olub getməsi məhz bacarıqlı sərkərdə, yüksək döyüş qabiliyyətli bir generalın adı ilə bağlıdır. Cildlərini dəyişən erməni daşnakları bolşevik sifətində cəllad Pankratova sığınmış şər, böhtan, uydurma məlumatlarla Həbib bəy Səlimovun məhv edilməsində mənfur rol oynayıb.

Kitabda hərbi nazir general-leytenant Səməd bəy Mehmandarov, onun müavini general-leytenant Əliağa Şıxlinski və Hərbi Nazirliyin 20-ci atıcı diviziyasının qərargah rəisi polkovnik Vasili Nikolayeviç Sokolovun barəsində olan istintaq işinin araşdırılması çox qaranlıq mətləblərə aydınlıq gətirib.

Bu nəşrdə cümhuriyyətin onlarla istedadlı hərbi zabitlərinin faciəli taleləri qəlb ağrısı ilə anılır. Azərbaycan tarixində Xoyskilər mühüm rol oynayıb. Cümhuriyyətin qurucularından olan Fətəli xan Xoyskinin vətən qarşısında xidmətləri heç zaman unudulmayacaq və yaddaşlardan silinməyəcək. Repressiyaya məruz qa-lan tanınmış dövlət xadimləri, hərbçilər, ziyalılar əksəriyyət təşkil edirdilər. Bunların arasında onların qohumları, övladları da vardı. Tiflisdə erməni terrorçusu tərəfindən qətlə yetirilən Fətəli xan Xoyskinin kiçik qardaşı Rüstəm xan Xoyski də bolşevik təqibindən çox əziyyətlər çəkib.

Ömrünün iyirmi ilini axtarış-tədqiqat işlərinə sərf edən Elşad Qoca "Borçalı azərbaycanlılarının tarixi məktubu" nu oxucuya təqdim etməklə çox örtülü mətləblərə bir aydınlıq gətirib.

1918-20-ci illərdə gürcü menşeviklərin işğalçı almanlarla əlbir olub yerli türk-müsəlman əhalisinə qarşı vəhşi münasibət bəsləmələri tarixdə bağışlanılmaz bir iz qoyub. Əsrlərlə bu torpaqlarda yaşamış soydaşlarımızın bölücülükdən yana olmaları bu torpaqları vətən bilmələri, lakin onların təmiz, saf niyyətləri qarşılığında menşeviklər və almanlar tərəfindən həqarət edilmələri dözülməzdir. Bu həqiqətlərin ortaya çıxması oxucunu ciddi düşünməyə vadar edir ki, bütün işlərin altında xain erməni əlinin olması özünü göstərir.

"Yüz ilin işığı"nda mənəvi tarixi yaddaşımızın görünməyən tərəflərinə bir aydınlıq gətirildi. Heç zaman unudulmayacaq, yaddan çıxmayacaq şanlı cümhuriyyət tariximiz, onun parlaq şəxsiyyətləri, bir də o dövlətin təhlükəsizlik orqanı əməkdaşlarının parlaq simaları aydın görünəcək.

O, yaradıcılığa başlayandan qələmə aldığı yüzlərlə oçerk, məqalə, etdiyi tərcümələr həmişə seçilib. Nəşr etdirdiyi on kitabı ədəbi aləmdə ona şöhrət gətirib "Körpülüyə gəlirəm" doğulub boya-başa çatdığı indiki yağı əlində qalan Körpülü kəndinin taleyi onu daim narahat edir. Özünün qeyd etdiyi kimi, içində bir Körpülü həs-rəti, dərdi, qəmi var. Yazıçı Körpülü və körpülülər haqqında ürəkdolusu yazır.

Gözü qarşısında böyüyən Körpülünün ən gənc övladı, ağıllı, tərbiyəli o qədər istiqanlı idi ki, təkcə dayısını yox, onun dostlarının da özünə yaxın bilən bacısı oğlu Anar haqqında Elşadın "Hələlik, Anar" yazısını bir elegiya sayıram. Axı, onu mən də tanıyırdım.

1996-cı ildən Azərbaycan Jurnalistlər Birliyinin, 1999-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Qarabağ müharibəsi veteranı, hərbçi polkovnik olan yazıçı-publisist Elşad Qocanın bu yaxınlarda 60 yaşı tamam olacaq. Şərəfli bir ömrün gözəl çağı. Qırx ildir ki, sözlə, qələmlə yol gəlir Elşad Qoca. bu qələmdən süzülüb sətirlərə axan sözlər çox mənalar daşıyır. Sahibinə layiqli hörmət, başucalığı, şöhrət gətirib.

60 yaşın mübarək! Dostum, mənim tanıdığım Elşad Qoca.

**İlqar Quliyev**